# Novruz bayramınız mübarək!

*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 20-21 (7069-7070) · Bazar ertəsi, 18 mart 2013-cü il · Qəzet ayda 4 dəfə çıxır · Qiyməti 40 qəpik




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Xəzər Dəniz Gəmiçiliyinin yeni inşa olunmuş "Gəmi təmiri və Gəmiqayırma" İstehsalat Birliyinin açılışında iştirak etmişdir.

* * *

Ölkə başçısı İlham Əliyev xalq şairi Nigar Rəfibəylinin, habelə SSRİ Xalq artisti Hökumə Qurbanovanın 100 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalamışdır.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Avstriya Respublikasının Milli Şurasının ikinci prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında ikitərəfli əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, ölkələrimiz arasında iqtisadi, enerji, informasiya və kommunikasiya texnalogiyaları, turizm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd edilmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Litvanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunmuşdur.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri olmuşdur.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiya Prezidenti İvo Yosipoviçlə əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə görüşləri olmuş, Prezidentlər mətbuata bəyanatla çıxış etmişlər.

Xorvatiya səfəri başa çatdıqdan sonra Prezident İlham Əliyev Monteneqroya rəsmi səfərə gəlmişdir.

**Miri RƏHİMOV.**

## Novruz bayramı münasibətilə
### Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Qəbələ rayon ictimaiyyətinə
## *təbriki*

**Hörmətli qəbələlilər!**

Xalqımızın milli bayramı—dirçəliş və oyanış rəmzi olan bahar ətirli Novruz bayramı münasibəti ilə Sizi səmimi qəlbdən təbrik edir, hamınıza bahar sevinci, xoş ovqat, Novruz əhval-ruhiyyəsi arzulayıram.

Qədim tarixə malik Novruz həmişə insanlara gözəl duyğular bəxş etmiş, qurub-yaratmaq həvəsi gətirmiş, hamımızı təbiətin oyanması ilə müjdələmişdir. Baharda təbiət oyanır və üzümüzə gülür, torpaq cana gəlir, hər şey təzələnir, adamların qəlbi sevinc hisləri ilə dolub-daşır. Bu ulu bayram cəmiyyəti xeyirxahlığa səsləyir, sabaha inamını artırır, firavan həyata, nəcib əməllərə, fədakar əməyə çağırır.

Min illərin süzgəcindən keçib gələn adətlərimiz, şən və maraqlı mərasimlər bu bayramın bəzəyidir. Xalqımız Novruzu həmişə şən əhvalla qarşılayır, nəcib əməlləri, gözəl adətləri qoruyub saxlayır və gələcək nəsillərə ötürür.

Bu il Novruz sosial-iqtisadi inkişafımızda əlamətdar nailiyyətlərimiz olan bir dövrdə qeyd olunur. Ölkəmizin və rayonumuzun uğurları bizi hədsiz sevindirir, yeni qələbələrə ruhlandırır. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz dövlət səviyyəsində bayram edilir. Rayonumuzun son illərdəki inkişafı ilə bağlı tamamilə dəyişən, yeniləşən və abadlaşan şəhərimizdə, qəsəbə və kəndlərimizdə Novruz günləri əsl el şənliklərinə çevrilir.

Novruz bayramını xarici ölkələrdə yaşayan soydaşlarımız da yüksək səviyyədə qeyd edirlər. Bu bayram dünyadakı bütün azərbaycanlıların həmrəyliyini gücləndirir, onların vətən sevgisini daha da artırır.

**Əziz qəbələlilər!**

Novruz bayramı münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, hamınıza bahar ovqatı, firavanlıq, can sağlığı və xöşbəxtlik, süfrənizə ruzi-bərəkət arzulayıram.

**Novruz bayramınız mübarək!**

